# Xalq öz liderinə inanır və bu, həmişə belə davam edəcək



## Ötən il prezident seçkiləri işğaldan azad olunmuş bütün ərazilərimizdə keçirilməsi ilə tarixə yazıldı

*2024-cü il fevralın 7-də Azərbaycan Respublikasında keçirilən növbədənkənar prezident seçkiləri Zəfər seçkiləri kimi tariximizdə iz qoymaqla yanaşı, dövlətimizin möhkəmlənməsi, sabitliyin qorunması və inkişafın davamı baxımından çox mühüm addım oldu. Cənab Prezident İlham Əliyevin yenə də qalibiyyət qazanması xalqımızın ona olan inamının bariz nümunəsidir.*

2003-cü ildə cənab İlham Əliyev ilk dəfə Prezident seçildi və Ulu Öndər Heydər Əliyevin siyasi kursunun davamı olaraq Azərbaycanı inkişaf mərhələsinə yüksəltdi. Neft strategiyası uğurla həyata keçirildi və iqtisadiyyatda sürətli inkişafın əsası qoyuldu. Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin istifadəyə verilməsi ilə yanaşı, Bakı-Tbilisi-Ərzurum qaz kəməri də regionun enerji təhlükəsizliyində mühüm rol oynadı. Bu dövr ərzində Azərbaycanın dövlət büdcəsi artdı, yeni sosial və iqtisadi layihələr həyata keçirildi.

Prezident İlham Əliyevin liderliyi dövründə aparılan mühüm sosial və iqtisadi islahatlar Azərbaycanın beynəlxalq reytinqlərdə mövqeyini əhəmiyyətli dərəcədə yüksəltdi. Ümumi Daxili Məhsul artımı ilə yanaşı, yoxsulluq səviyyəsi 49 faizdən 5 faizə qədər azaldı. Təhsil və səhiyyə sahələrində də genişmiqyaslı islahatlar həyata keçirildi. Müasir standartlara cavab verən məktəb binaları və tibb müəssisələri inşa edildi. Kənd təsərrüfatının inkişafı üçün xüsusi Dövlət proqramları qəbul edildi.

Bu seçkilərdə xalqımızın 44 günlük Vətən müharibəsində və 2023-cü ilin sentyabr ayındakı lokal antiterror tədbirlərində qazanılan tarixi Zəfərə görə təşəkkür borcu ifadə olundu. Bu seçkilər həm də dövlətçilik ənənələrinə sadiqliyin təzahürü idi.

Seçki günü xalqımız səsvermə məntəqələrinə böyük coşqu ilə gedirdi. Məntəqələrdə növbələr, müxtəlif yaş qruplarından olan vətəndaşların aktiv iştirakı, birlik nümayişi xalqımızın qəlbindəki Vətən sevgisinin təzahürü idi.

Cənab Prezident İlham Əliyevə səs verən vətəndaşlarımız onun 21 il ərzində apardığı siyasətin məntiqi nəticələrini qiymətləndirərək daha firavan, daha sabit bir Azərbaycan arzusunda olduqlarını ifadə etdilər. Xalqımız İlham Əliyevə yalnız lider olaraq deyil, həm də sülh və inkişafın təminatçısı kimi etimad göstərdi.

Prezidentin möhtəşəm qalibiyyəti 2003-cü ildə başladığı yolun zəfərlə dolu bir yol olduğunu göstərdi. Məhz bu yolda Avrasiyanın enerji siyasətində yeni reallıqlar yaratmaq, iqtisadiyyatı inkişaf etdirən Prezident İlham Əliyevin siyasətinin bariz nümunəsidir. Xüsusilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Şimal-Cənub dəhlizi kimi strateji layihələrin reallaşması Azərbaycanın logistika və ticarət mərkəzinə çevrilməsinə şərait yaratdı.

Azərbaycan xalqı Qarabağın və Şərqi Zəngəzurun tam azad olmuş, suverenliyi bərpa olunmuş şəraitdə seçki keçirməyi bayram etdi. Prezident İlham Əliyevin Xankəndidə səs verməsi beynəlxalq arenaya açıq mesaj və Qarabağın Azərbaycanın bir parçası olduğunun təsdiqi idi. Dünya mediası bu addımı geniş şəkildə müzakirə etdi və Azərbaycanın suverenliyinin təntənəsi kimi qiymətləndirdi.

Seçkilərdən sonra aparılan genişmiqyaslı islahatlar və infrastruktur layihələri Qarabağın yenidən qurulması və böyük qayıdış prosesinə təkan verdi. İllərdir məcburi köçkün həyatı yaşayan soydaşlarımızın doğma yurdlarına qayıtması təmin edilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən quruculuq işləri regionda dayanıqlı sülhün və inkişafın təminatçısıdır. Füzuli Beynəlxalq Hava Limanının açılışı, Şuşa və Ağdamda yeni sənaye parklarının yaradılması bu strategiyanın bir hissəsidir.

2003-cü ildən başlayan bu yolda möhtəşəm quruculuq, beynəlxalq siyasətdə inamla atılan addımlar və Qarabağ Zəfəri İlham Əliyevin liderlik keyfiyyətinin nəticəsidir.

Azərbaycanın inkişaf yolunda qazandığı uğurlar dünya miqyasda da yüksək qiymətləndirilir. Prezident İlham Əliyev müxtəlif beynəlxalq tədbirlərdə çıxış edərək Azərbaycanın milli maraqlarını qətiyyətlə müdafiə edir. Onun rəhbərliyi ilə ölkəmiz regional və qlobal əməkdaşlıq platformalarında fəal iştirak edir, enerji təhlükəsizliyi, nəqliyyat və logistika sahələrində strateji tərəfdaşlıqlar qurur. Avropa İttifaqı ilə enerji əməkdaşlığı, Mərkəzi Asiya ilə ticarət əlaqələrinin genişləndirilməsi bu siyasətin bariz nümunəsidir.

Bu uğurların təməlində xalqımızın əzmkarlığı və cənab Prezident İlham Əliyevin uzaqgörən siyasəti dayanır. Azərbaycan xalqı öz liderinə olan inamını 2024-cü ilin Zəfər seçkilərində bir daha təsdiqlədi. Bu seçkilər yalnız keçmiş nailiyyətlərin təntənəsi deyil, həm də daha böyük uğurların müjdəsi oldu. Xalqımız əmindir ki, qarşıdakı illərdə Azərbaycanı daha da qüdrətli, firavan günlər gözləyir.

**Tacir SADIQOV,**
**"Respublika".**



